# İşgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət...

## Azərbaycan qadınının mövqeyini və simasını müəyyən edir






Müasir dövrdə qadınların cəmiyyət həyatında fəallığı, gender bərabərliyi kimi məsələlər aktualdır. Hazırda əsas beynəlxalq sənədlərdə, hüquqi-normativ aktlarda cinslər arasında bərabərlik insanın başlıca hüquqlarından biri kimi təsbit edilir. Qadınların hüquqlarının qorunması, onların cəmiyyət həyatının müxtəlif sahələrində fəallığı üçün imkanların isə önəmli çağırışlardan biridir. Bu səpkidə Azərbaycan təcrübəsi müsbət, mütərəqqi təcrübə kimi diqqəti cəlb edir.

Ümumiyyətlə, Azərbaycan qadını bütün dövrlərdə təşəbbüskarlığı ilə seçilib, cəmiyyətin inkişafına, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılmasına layiqli töhfə verib. Digər tərəfdən, qadınlarımız milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın etibarlı dayağı olublar. Onlar, eyni zamanda, vətənpərvərliyin, milli həmrəyliyin gücləndirilməsində əvəzsiz rol oynayıblar. Müstəqillik dövründə görülən işlər - atılan addımlar isə qadınların fəallığının artmasını təmin edib. Dövlət qadın siyasətinin zamanın çağırışlarına uyğun həyata keçirilməsi, gender bərabərliyinə, qadın hüquqlarının tənzimlənməsinə xidmət edən digər normativ sənədlərin imzalanması bu baxımdan xüsusi qeyd edilməlidir. Ölkəmizdə qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrlə təsbit olunub. Qəbul olunmuş Dövlət proqramlarının icrası isə ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasında mühüm əhəmiyyətə malik olub. Paralel olaraq Azərbaycan gender bərabərliyi və qadın hüquqlarının qorunması üzrə bütün mühüm beynəlxalq sənədlərə qoşulub.

Xüsusi qeyd etmək lazımdır ki, ölkəmizdə dövlət qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşır, onların hərtərəfli fəaliyyətinə xüsusi önəm verirdi. Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra ölkəmizdə gender bərabərliyinin təmin edilməsi, qadın hüquqlarının qorunması üzrə sistemli, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib, mühüm qanunlar və qərarlar qəbul olunub. Ulu Öndərin müvafiq qərarları gender siyasətinin uğurla davam etdirilməsini, bu sahədə zəngin qanunvericilik bazasının formalaşmasını təmin edib. Prezident İlham Əliyev də qadınların cəmiyyətdə rolunun artırılmasına böyük diqqət göstərir. Azərbaycan Prezidentinin iradəsi, müvafiq göstərişləri əsasında atılan addımlar qanunvericiliyin zənginləşməsinə, qadınların ictimai, siyasi, mədəni, digər sahələrdə aktivliyinin yüksəlməsinə hədəflənib və səmərəli nəticələr əldə olunur. Hər il dövlət başçısı 8 mart - Beynəlxalq Qadınlar günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, Azərbaycan qadınlarının bir qrupuna fəxri adlar verir, digər bir qrupu isə orden və ya medallarla təltif edir.

Bunlarla yanaşı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hərtərəfli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunun daha da artmasını təmin edir. Onun çoxşaxəli fəaliyyəti cəmiyyət və qadınlar üçün əsl örnək - parlaq nümunədir, milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanır. Təsadüfi deyil ki, Azərbaycanın birinci xanımının gördüyü işlər, irəli sürdüyü təşəbbüslər və reallaşdırdığı layihələr həm cəmiyyətimizdə, həm də beynəlxalq səviyyədə təqdir olunur - olduqca yüksək dəyərləndirilir.

Nəticə etibarilə, Azərbaycan qadınlarının yüksək fəallığı və təşəbbüskarlığı cəmiyyətin sosial-iqtisadi, elmi, mədəni və humanitar potensialının artırılmasına, ölkəmizin müsbət beynəlxalq imicinin möhkəmlənməsinə mühüm töhfədir.

*"Yeni Azərbaycan"*